# *Media:* "Ermәni lobbisi Ermәnistanın Aİ-dә kriminal alәtidir"

Ermәni lobbisi Qәrbdә qeyri-qanuni fәaliyyәtini davam etdirir vә Avropa İttifaqı (Aİ) ölkәlәrindә Azәrbaycana qara yaxmaq üçün korrupsiya sxemlәrindәn fәal istifadә edir.

AZӘRTAC xәbәr verir ki, bu barәdә çәrşәnbә günü, avqustun 7-dә "HaberGlobal" telekanalı Avropanın "EU Reporter" informasiya resursunun vә Kanadanın CBC telekanalının sәnәdli tәdqiqat filminә istinadla mәlumat yayıb. Araşdırmanın müәlliflәri Ermәnistanın Avropa İttifaqında lobbiçilik fәaliyyәtini ifşa ediblәr.

"EU Reporter" vә CBC-nin araşdırmasında deyilir: "Ermәnistan uzun illәrdir ki, Avropa ölkәlәrinin hökumәtyönlü dairәlәrindә vә strukturlarında anti-Azәrbaycan motivli lobbiçilik fәaliyyәti hәyata keçirir. Azәrbaycana qarşı nifrәt yaymaqla mәşğul olan ermәni lobbiçilәri brilyant qaçaqmalçısı, mafioz Kaspar Karampetyan tәrәfindәn idarә olunur".

Sәnәdli filmdә Karampetyanın saxtakarlığı vә qanunsuz fәaliyyәtinә görә ona qarşı çoxsaylı cinayәt tәqiblәrinә diqqәt çәkilir.

Tәdqiqat müәlliflәri qeyd edirlәr ki, Avropa İttifaqının tәsisatları Azәrbaycan vә Ermәnistan arasında uzunmüddәtli sülhә nail olmaq üçün çalışsa da, ermәni lobbisi bu sәylәrә zәrbә vurur".

"EU Reporter" vә CBC 2022-ci ildә dörd avropalı siyasәtçinin, o cümlәdәn Avropa Parlamentinin vitse-prezidentinin rüşvәtxorluq vә qeyri-qanuni ticarәt әlaqәlәri ittihamı ilә hәbs olunduğu korrupsiya qalmaqalını xatırladıb. "Bu qalmaqal hәm dә ermәni lobbisinin hiylәlәrini ifşa etdi. Avropalı siyasәtçilәrә rüşvәt verәn strukturlar arasında Әdalәt vә Demokratiya Uğrunda Avropa Ermәni Federasiyası (EAFJD) vә Aİ-Ermәnistan Dostluq Qrupu da var", - deyә araşdırmada mәsәlәyә aydınlıq gәtirilir.



Materialın müәlliflәri diqqәti Belçikada ermәni mafiyasına rәhbәrlik edәn Karampetyanın Avropada pul yığılmasını tәşkil etmәklә vaxtilә Qarabağdakı ermәni separatçılarını fәal şәkildә himayә etdiyinә yönәldiblәr.

Film Avropada ermәni lobbisinin Azәrbaycan әleyhinә çoxsaylı mitinqlәr tәşkil etmәsini, hәmçinin Belçika, Almaniya vә Fransa parlamentlәrinin deputatlarının İrәvana sәfәrlәrini xatırladır.

Tәdqiqatın müәlliflәri, hәmçinin ermәni lobbisinin başqa bir nümayәndәsinә - Aİ-dә Azәrbaycana qarşı düşmәn münasibәt yaratmaq istiqamәtindә fәal sәylәri ilә tanınan Artur Xaçatryanın pozucu fәaliyyәtinә dә diqqәt çәkirlәr.

Araşdırmada vurğulanır ki, Avropadakı korrupsiya qalmaqalında daşnaklar da iştirak edirlәr. Bildirilir ki, son illәrdә ermәni lobbisinin mәqsәdlәrindәn biri dә Ermәnistanın İkinci Qarabağ müharibәsi zamanı törәtdiyi cinayәtlәri gizlәtmәkdir.

Azәrbaycan.- 2024.- 8 avqust (№ 167).- S.4.